**Mövzu4 : Uşaq və yenityetmə müəssisələri üzərində xəbərdaredici və cari sanitariya nəzarətinin təşkili və keçirilmə xüsusiyyətləri. Gigiyena və epidemiologiya mərkəzində uşaq və yeniyetmə gigiyena bölməsi həkiminin işinin təşkili, hüquq və vəzifələri**

**Mövzu planı:**

1. Uşaq və yeniyetmə əhalisinin sağlamlığı üzərində sanitariya -epidemioloji xidmət.
2. Sanitariya nəzarətinin formaları, planlı və plansız müayinələr
3. Xəbərdaredici sanitariya nəzarəti təşkili, keçirilmə xüsusiyyətləri
4. Cari sanitariya nəzarəti təşkili, keçirilmə xüsusiyyətləri
5. Cari sanitariya nəzarətinin formaları
6. Uşaq və yeniyetmələr gigiyenası üzrə həkimin işi, vəzifələri.

Uşaq və yeniyetmələrin sanitar – epidemioloji rifahının və sağlamlığın mühafizəsinin hüquqi bazasınaı təşkil edir:

- Azərbaycan Respublikasının qanunları;
- Azərbaycan Respublikası Prezidentinin fərmanları;
- Azərbaycan Respublikası hökümətinin qərarları;
- sanitar norma və qaydalar;
- inzibatı və yerli özünüidarə orqanalrının fərmanları.

Əhalinin sanitar – epidemioloji əminamanlığının təminatı, sağlamlığın mühafizəsi və əlverişli ətraf mühitin yaradılması insanın konstitusiya hüququnun həyata keçirilməsinin əsas şərtidir, bunlar Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sanitar epidemioloji salamatlığı haqqında " qanunu ilə tənzimlənir.

Qanun normasının prinsipial mahiyyəti icra və nəzarət funksiyasının həyata keçirilməsidir. Dövlət tərəfindən verilən qanunların yerinə yetirilməsinə nəzarət gücləndirilmiş, bu funksiya Azərbaycan Respublikası Dövlət sanitar –epidemioloji xidmət sisteminə həvalə olunmuşdur.

Uşaq və yeniyetmə əhalisinin sağlamlığı üzərində *sanitar -epidemioloji xidməti* sanitar qanunvericilik əsasında sanitar həkimlər həyata keçirir. Sanitar qanunvericiliyi ilə sanitar nəzarətin xalq təsərrüfatında vəzifəsi və yeri, sanitar xidmətin strukturu, işin həcmi və sanitar həkimin hüquqları müəyyən edilir.

Dövlət sanitariya nəzarəti əsasnaməsində onun əsas vəzifəsi ətraf mühitin çirklənməsinin ləğvi, əhalinin əmək, tədris, məişət və istirahət şəraitinin sağlamlaşdırılması, xəstəliklər və onun səviyyəsinin aşağı salınmasına yönəldilmiş sanitar - gigiyenik və sanitar - əksepidemioloji tədbirlər üzərində nəzarət və s. kimi müəyyən edilir.

Bu əsasnamə ilə sanitar-epidemioloji xidmətin vəzifəli şəxslərinin yeni adı müəyyən edilmiş - Baş Dövlət sanitar həkimi, yəni sanitar-epidemioloji xidmətin dövlət səciyyəliyi vurğulanmışdır. Əsasnamə ilə yeni kimyəvi maddələrin tətbiqi, ərzaq məhsullarının istehsalı və emalı zamanı istifadə olunan avadanlıq və üsullar, uşaq müəsissələrinin tikintisi və məişətdə polimer materialların tətbiqi, uşaq oyuncaqları, ayaqqabı, paltar, kitab və mebelərin istehsalı, istifadəsi və s. üzərində sanitar həkiminin rolu xeyli gücləndirilməlidir. Uşaq və yeniyetmə müəsissələrində tədris - əmək yükü, məşğələlərin təşkili, gün rejimi üzərində gigiyenik normaların yeniləşdirilməsi prioritet istiqamətdir.

Müasir dövrdə Dövlət sanitariya nəzarətinin ixtisaslaşdırılmasının böyük əhəmiyyəti vardır. Gigiyena və Epidemiologiya Mərkəzinin (GEM) tərkibində uşaq və yeniyetmələr gigiyenası şöbəsi fəaliyyət göstərir.

Uşaq və yeniyetmələr gigiyenası üzrə sanitar həkimə şəhər və rayonun uşaq və yeniyetmə müəsissələrində sanitar-epidemioloji xidmətin təmin edilməsi həvalə olunmuşdur.

Uşaq və yeniyetmələr gigiyenası üzrə həkimlərin sayı xidmət olunan rayon əhalisinin sayını nəzərə almaqla müəyən edilir, 2 və daha çox həkim olduqda bu ərazinin müəyyən sahəsinə, orada yerləşən müvafiq obyektlərə xidmət göstərir.

Uşaq və yeniyetmələr gigiyenası üzrə həkimin işi aşağıdakı vəzifələrin həlli ilə əlaqədardır:

- uşaq və yeniyetmə kontingentinin sağlamlıq vəziyyətinin öyrənilməsi, onlar arasında sağlamlıq tədbirlərinin keçirilməsi və yay sağlamlaşdırıcı işin təşkilıı;
- uşaq və yeniyemə müəsissələri üzərində xəbərdaredici və cari sanitariya nəzarətinin təşkili və keçirilməsi;
- uşaq və yeniyetmələrin gigiyenik tərbiyəsi üzrə iş də daxil olmaqla təşkilati-metodik işin həyata keçirilməsi.

Bu vəzifələri yerinə yetirən həkim təşkilati iş həcminin böyüklüyü, xidmət olunan yaş diapazonunun genişliyi və sanitar-demoqrafiya göstəriciləri, normallaşdırılan mühit amillərinin çoxluğu və həmin ərazidə onların vəziyyəti, mütəşəkkil uşaq kollektivlərində epidemiolji vəziyyətin dinamikası, nəzarət olunan obyektlərin müxtəlifliyi və onların sanitar-texniki vəziyyətini qiymətləndirmək üçün müxtəlif forma və üsullardan istifadə edir.

Uşaq və yeniyetmə gigiyenası üzrə sanitar həkimin fəaliyyəti aşağıdakılardan ibarətdir: *təşkilati metodik iş; xəbərdaredici sanitariya nəzarəti; cari sanitariya nəzarəti; sanitar maarif işi.*

Uşaq və yeniyetmə müəsissələrinin lahiyəsi və inşaatı üzrə *xəbərdaredici sanitar nəzarəti* uşaq və yeniyetmələr gigiyenası üzrə həkimin fəaliyyətində vacib istiqamətdir. Uşaq və yeniyetmə müəsissəsində tərbiyə və tədris şəraiti xeyli dərəcədə keçirilən xəbərdaredici sanitar nəzarətinin keyfiyyətindən asılır.

Uşaq və yeniyetmələr müəsissəsinin lahiyələşdirilməsi və inşaatı üzərində xəbərdaredici sanitar nəzarətinə daxildir:

1. Müəsissənin tikintisi üçün ayrılan torpaq sahəsinin yoxlanılma-sı və sanitar rəyin hazırlanması;
2. Uşaq və yeniyetmər müəssisələrinin tikintisi və abadlaşdırıl-ması haqqinda lahiyələr baxılması;
3. Uşaq və yeniyetmə müəssisələrinin tikintisi və abadlaşdırılma-sı üzərində nəzarət;
4. Binanın qəbulu üzrə dövlət komissiyasının tərkibində iştirak.

Uşaq və yeniyetmə gigiyenası üzrə həkim şəhər və yaşayış məntəqəsində gələcəkdə tikiləcək uşaq və yeniyetmə müəssisələri-nin planlaşdırılmasında iştirak edir.

Uşaq əşyalarının istehsalı üzərində xəbərdaredici sanitar nəzarətini həyata keçirərkən, həkim qüvvədə olan sanitar qaydaları, standartları və ya sanitar nəzarəti idarələri ilə razılaşdırılmış norma və texniki sənədləri əldə rəhbər tutur.

Uşaq əşyalarının istehsalı zamanı sanitar - gigiyenik norma və qaydaların gözlənilməsi üzərində nəzarət məqsədilə əşyaların bütün yeni nümunələri (oyuncaqlar, mebel, paltar, kitablar və s. ) gigiyenik espertizadan keçirilir və hər nümunə üzrə rəy hazırlanır. Bundan əlavə buraxılan məmulatın sanitar-gigiyenik tələbələrə müvafiqliyi, həmçinin əşyaların istehsalatı və satış yerləri üzərində planlı nəzarət həyata keçirilir.

Uşaq əşyalarının gigiyenik ekspertizasına texniki istehsal şərtlərinə baxılması və ya nümunənin təsviri, nümunənin yoxlanılması və labarator tədqiqat da daxildir.

Uşaq əşyalarının ekspertiza metodikası tətqiqatın məqsədindən asılıdır və müxtəlif laborator müayinə üsulları istifadə olunur. (kimyəvi, bakterioloji, fiziki və b.).

*Cari sanitar nəzarəti* uşaq və yeniyetmə gigiyenası üzrə sanitar həkimin fəaliyyətində vacib yer tutur - fəaliyyətdə olan uşaq müəssisələri üzərində nəzarət təmin edilir. İşin bu bölməsi uşaq və yeniyetmə gigiyenası üzrə həkimin digər vacib bölmələri ilə sıx əlaqəlidir: təşkilatı və metodik iş, xəbərdaredici sanitar nəzarət, əksepidemioloji tədbirlərin aparılması üzərində nəzarət və sanitar maarıf işi.

Cari sanitar nəzarətini həyata keçirərkən həkim sanitar norma və qaydalarını əldə rəhbər tutur və aşağıdakılar təmin edilir:

● uşaq və yeniyetmər müəsissələrində sanitar-gigiyenik norma, qayda və tələblərin gözlənilməsi üzərində nəzarət;
● uşaq və yeniyetmə müəsissələrində tədris - tərbiyə şəraitinin öyrənilməsi, tətqiqat materialları və uşaq və yeniyetmələrin dərin tibbi müayinə məlumatları

və xəstələnmələrin təhlilinə əsasən müəssisənin sanitar vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş planlı sağlamlaşdırıcı tədbirlərin hairlanması;

● uşaq və yeniyetmə müəsissələrinin tibbi işçilərinin sanitar-gigiyenik və əksepidemioloji işinin təşkili üzərində nəzarət.

Uşaq və yeniyetmə müəsissələrinin yoxlanması xüsusi tərtib olunmuş plan üzrə (planlı müayinələr) və ya göstərişlər (plandan kənar) üzrə aparılır. Planlı və plansız müayinələr baş həkimin göstərişi əsasında qəbul olunmuş qaydada həyata keçirilir və nəzarət üçün müayinələr cavabdeh şəxs və ya müəssisənin nünayəndəsinin iştirakı ilə aparılır.

Planlı müayinələr *reyd, çarpaz, mövzu üzrə və kompleks* müayinələr şəklində yerinə yetiriiir.

Nəzarət üzrə plansız müayinələr:

● tələblərin yerinə yetirilməsinə nəzarət zamanı;

● uşaqların sağlamlığına, ətraf mühit və əmlaka birbaşa zərər verən qəza vəziyyəti, texnoloji prosesin dəyişməsi və ya pozulması, həmçinin qurğu və avadanlıqların sıradan çıxması barədə hüquqi şəxslərdən, fərdi sahibkarlardan, dövlət inzibati orqanlarından məlumat daxil olduqda;

● ətraf mühit çirkləndikdə, əmlak zədələndikdə, vətəndaşların həyatı və sağlamlığı üçün təhlükə baş verdikdə;

● vətəndaşlardan, hüquqi şəxslərdən və fərdi sahibkarlardan onların hüquq və qanunu maraqlarının pozulması şikayətləri, başqa hüquqi şəxslər və fərdi sahibkarların vəzifə tələblərini yerinə yetirmədikdə, həmçinin bu cür başqa məlumatlar alındıqda və onları təsdiq edən sənəd və ya belə pozulma əlamətləri olduqda keçirilir.

Planlı müayinənin həcmi, laborator –cihaz müayinələr obyektin sanitar-gigiyenik vəziyyətindən asılı olaraq mütəxəssislər tərəfindən təyin olunur. Plandankənar müayinənin həcmi, laborator –cihaz müayinələr müayinəni aparan cavabdeh şəxs tərəfindən təyin olunur.

Sanitar – gigiyenik müayinə zamanı istifadə edilən labarator, cihaz və sosial ( anket, sorğu) müayinə üsulları uşaq və yeniyetmə müəsissələrində tədris-tərbiyə şəraitinin obyektiv qiymətləndirilməsini təmin edir və obyektin sanitar vəziyyətin hərtərəfli öyrənilməsi zamanı zəruridir.

Uşaq və yeniyetmə müəsissələrinin labarator və cihaz müayinəsinə daxildir:

1. Müəssisə ərazisində və otaqlarda hava mühiti və mikroiqlimin təyini;
2. Suyun keyfiyyətinə nəzarət ;
3. Ərazidə torpağın sanitar vəziyyətinə nəzarət;
4. Uşaq və yeniyetmələrin qidalanmasının keyfiyyətinə nəzarət;
5. Müəssisələrdə sanitar-əksepidemioloji rejimə nəzarət (yuyuntu materialının götürülməsi);

6. Otaqlarda işıqlanma səviyyəsinin təyini;
7. Səs-küy səviyyəsinin təyini;
8. Mebelin ölçülərinin təyini.

Labarator və cihaz müayinələr müəssisənin ətraflı sanitar müayinəsi ilə müşayiət olunur, bu zaman laborator müayinə və alətlə ölçülərin nəticələrinə təsir göstərə bilən sanitar tələblərin pozulmasına xüsusi fikir verilir. Bu məlumatlar uşaqların tədris və tərbiyə şəraitinin yaxşılaşdırılması üzrə düzgün sanitar-gigiyenik tövsiyyələrin hazırlanmasına imkan verir.

Obyektlərin sanitar vəziyyəti, cari sanitar müayinə nəticələri əsasında həkim uşaq və yeniyetmə müəsissələrində təlim - tərbiyə şəraitinin yaxşılaşdırılması üçün *sağlamlaşdırıcı tədbirlər planı* (plan - tapşırıq) tərtib edir. O, nəinki uşaq və yeniyetmə müəssisələrində sanitar norma və qaydaların gözlənilməsi üzərində nəzarəti təmin etməli, həmçinin müəssisələrin sanitar vəziyyəti və işinin yaxşılaşdırılmasına yönəldilmiş sağlamlaşdırıcı tədbirlər hazırlamalıdır. Plan –tapşırığın hazırlanmasına müəssisənin tibb işçisi də cəlb olunur. Sağlamlaşdırıcı tədbirlər planına yerinə yetirilməsi uzun vaxt tələb edən və ya xüsusi vəsait ayrılması tələb olunan işlər daxil edilir ( məs: artezian quyusunun qazılması, süni işıqlanma sisteminin yeniləşdirilməsi, otaqların genişləndirilməsi, ventilyasiya qurğularının dəyişdirilməsi və s.). Plan –tapşırıq müəssisənin müdüri ilə razılaşdırılır və yerinə yetirilməsi üçün ona təqdim olunur. Plan –tapşırıqlar 1ilə və ya perspektivə tərtib edilə bilər.

Uşaq və yeniyetmə gigiyenası həkimi yay sağlamlaşdırıcı işin təşkili və keçirilməsi ilə əlaqədar bütün təşkilati, sanitar-gigiyenik və əksepidemioji tədbirləri həyata keçirir.

GEM həkiminin işində uşaq müəssisələrinin tədris – tərbiyə işinin yaxşılaşdırılmasına yönəldilən *təşkilati-metodik iş* böyük yer tutur. Təşkilati-metodik işə daxildir :

1. Uşaq və yeniyetmə müəsisələrində tədris və tərbiyə şəraitinin yaxşılaşdırılması haqqında məsələlərin hazırlanması və onların yerli icra orqanları, təsərrüfat və ictimai təşkilatlar qarşısında qoyulması;
2. Uşaq və yeniyetmə müəssisə rəhbərləri, tibb və digər işçiləri ilə sanitar-gigiyenik məsələlər üzrə müşavirələrin təşkili və keçirilməsi;
3. Müxtəlif təşkilatlarda uşaq və yeniyetmə müəssisələrinin işi haqqında məsələlərin müzakirəsində iştirak etmək;
4. Sanitar-gigiyenik məsələlər üzrə uşaq və yeniyetmə müəssisələrinin tibb işçilərinin işinə metodik rəhbərlik;
5. Əhali arasında uşaq və yeniyetmələrin gigiyenası sahəsində biliklərin yayılması üzrə tədbirlərin təşkili və keçirilməsi, müəssisə heyətinin gigiyenik bilik səviyyəsinin artırılması.

GEM-nin uşaq və yeniyetmə gigiyenası həkiminin fəaliyyəti kompleks göstəricilər üzrə qiymətləndirilir: dövlət sanitar nəzarəti üzrə görülən işin həcmini səciyyələndirən operativ fəallıqla; nəzarət altında olan obyektlərin sanitar əmin-amanlıq səviyyəsini səciyyələndirən dəyişikliklərlə (tamamlayıcı); uşaq və yeniyetmələrin, ilk növbədə mütəşəkkil kollektivlərin sağlamlıq vəziyyətilə.

Uşaq və yeniyetmə müəsissələrində aparılan dərin tibbi müayinə, həmçinin poliklinika və xəstəxanalardan daxil olan məlumatlara əsasən həkim uşaq və yeniyetmələrin sağlamlıq vəziyyətini və fiziki inkişafını səciyyələndirən materialları ümumiləşdirir. Təcili bildirişlər yoluxucu xəstələnmələr barədə məlumat verir. Yoluxucu və ümumi xəstələnmələr haqqında məlumatlar təhlil edilir. Uşaq və yeniyetmələr gigiyena həkimi epidemioloqla gündəlik təmasda olur, çünki əksepidemioloji, müalicə-profilaktik, sanitar-profilaktiki və sanitar-sağlamlaşdırıcı tədbirlər tam vəhdəd təşkil etməlidir.

Dövlət hakimiyyətinin nümayəndəsi kimi sanitar həkim böyüməkdə olan nəslin sağlamlığının mühafizəsinə yönəldilmiş sağlamlaşdırıcı və gigiyenik tədbirlərin həyata keçirilməsi üçün çox prinsipial olmalı və xidmət rayonunda sanitar-əksepidemioloji tədbirlərə rəhbəredici funksiyanı həyata keçirməlidir. Uşaq və yeniyetmə gigiyenası həkimi müalicə-profilaktika müəssisələrin tibb heyəti, uşaq və yeniyetmə müəsissələrinin inzibati-təsərrüfat işçiləri, yerli inzibati icra orqanları və ictimai təşkilatların nümayəndələri ilə qaşılılı işləməlidir. Işin səmərəliliyi xeyli dərəcədə onun nüfuzu, bilik səviyəsi, prinsipiallığından asılıdır.

Sanitar xidmətin mütəxəssislərinin hüqüqlarına daxildir:

1. Təhsil müəssisələrinin müdirindən təhsil və tərbiyə proqrqmını, baza tədris planını, gün rejimi, dərs cədvəli, həftəlik və günlük faktiki tədris yükünü tələb etmək;
2. Uşaq və yeniyetmələrin fiziki inkişafı, profilaktik müayinənin nəticələri və xəstəlik məlumatlarını əldə etmək ( xüsusi ststistik formada);
3. Tədris tərbiyə və ya müxtəlif rejim elemenlərinin xronometrajını keçirmək;
4. Əqli iş qabiliyyətini öyrənmək və dinamikada qiymətləndirmək;
5. Uşaqlar, yeniyetmələr və valideynlər arasında anket sorğusu keçirmək.

Sanitar xidmətin çavabdeh şəxsləri ( mütəxəssisləri ) qiymətləndirir:

● təlim –tərbiyə proqramının böyüyən orqanizmin funksional imkanı, hazırlığı və mənimsəməsinə müvafiqliyini;

● təlim –tərbiyə rejiminin fizioloji prinsiplərə ( sutkalıq bioritmlər, gün və həftə ərzində optimal iş qabiliyyəti dövrü, istirahər və əməyin səmərəli növbələşməsi, yaş – cins xüsusiyyətləri, tətil vaxtı) müvafiqliyini;

● həftəlik tədris yükünün həcmi və düzgün bölüşdürülməsi, dərsin və tədris gününün qurulması, texniki tədris vəsaitlərinin səmərəli istifadəsi, müddəti və həftə ərzində dərsin sayı və s.

*Uşaq və yeniyetmə müəssisələrində sanitar qaydaların yerinə yetirilməsinə cavabdehlik vəzifə üzrə cavabdeh mütəxəssis və işçilərə həvalə olunur.*

Sanitar müayinənin nəticələri qüvvədə olan normativ sənədlər və qanunlara əsasən qiymətləndirilir. Sanitar müayinənin nəticələri və ya ekspertizası əsasında "Sanitar müayinə akt"ı tərtib olunur. Aktda aşkar olunan nöqsanlar nəzərə alınmaqla təkliflər yazılır və aradan qaldırılması üçün cavabdeh şəxsə ünvanlanır. Aktı həkim, müayinədə iştirak edən şəxslər, həmçinin təkliflərin yerinə yetirilməsinə cavabdeh şəxs müəssisə rəhbəri imzalayır. Müayinənin nəticəsi mənfi olan zaman, sanitar – gigiyenik pozulma və onun sağlamlığa risk dərəcəsi təyin edilir catışmazlıqların aradan qaldırılmasına təkliflər verilir. Sənədin ekspertizası zamanı mənfi nəticə olduqda onun razılaşdırılması təxirə salınır.

Müayinə zamanı verilən təkliflərin yrinə yetirilməsi aktda göstərilən müddətə yoxlanılmalıdır. Əgər verilən təkliflər yerinə yetirilməyibsə təkrari göstəriş verilir və ya cavabdeh şəxsə sanitar qaydaların pozulma protokolu tərtib olunur. GEM-in baş həkimi cərimə qoyulması haqqında qərar çıxarır. Uşaq və yeniyetmələrin həyatı üçün təhlükəli sanitaqr qaydaların kobud pozulması hallarında protokol dərhal xəbərdarlıq edilmədən tərtib olunur. Müayinə aktı, laborator – cihaz müayinəsi və basqa sənədlər protokolu tərtib etmək üçün əsas ola bilər və onlar protokola qoşulur. Sanitar qaydalarının pozulmasını aradan qaldırmaq mümkün olmadıqda baş həkim müəssisənin müvəqqəti və ya daimi dayandırılması haqqında qərar verə bilər.

Protokol xüsusi blankda tərtib olunur, onu tərtib edən və inzibati qanun pozucusu olan şəxs imzalayır. İnzibati qanun pozucusu olan şəxs tərəfindən protokola imza imtina edildikdə bu barədə şahidlərin iştirakı ilə orada qeydiyyat aparılır.